Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası

Azərbaycan Respublikasında 18 mart 2009-cu il tarixdə keçiriləcək Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi haqqında Referendumun Uzunmüddətli Müşahidəsinin nəticələrinə dair

ARALIQ HESABAT

(10 yanvar - 10 mart 2009-cu il)

Giriş

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCIYA) - 2003 – cü ildə 10 QHT – nin təşəbbüsü ilə yaranıb. AVCİYA-nın yaradılmasında əsas məqsəd Assosiasiyaya daxil olan qeyri-hökumət təşkilatlarının və üçüncü sektorun digər nümayəndələrinin fəaliyyətinin əlaqələndirilməsi vasitəsi ilə ölkədə vətəndaş cəmiyyətinin yaradılması prosesinə yardım göstərməkdir. Assosiasiyaya daxil olan QHT-lər ixtisaslaşdıqları sahələrdə mövcud olan problemlərə cəmiyyətin diqqətini cəlb etməyi, vətəndaşların onların həllində iştirakını, bu sferalarda gedən proseslərin maksimal şəffaflığını öz qarşılarına məqsəd kimi qoyurlar.

Assosiasiyanın məqsədlərindən biri də vətəndaş cəmiyyətinin bütün iştirakçıları (hökumət, cəmiyyət, üçüncü sektor və s.) arasında dialoqun yaradılmasına kömək etməkdir. Assosiasiya və ona üzv olan qeyri-hökumət təşkilatları üçüncü sektorla KİV arasında tərəfdaşlıq münasibətlərinin formalaşmasına yardım göstərməyə çalışır.

Vətəndaş Cəmiyyətinin qurulmasının ədalətli və şəffaf seçkilərsiz mümkünsüzlüyünü qəbul edərək AVCİYA yarandığı gündən seçki prosesində iştirak etməyə başlayıb. 2004-cü ilin dekabrında AVCİYA «Azərbaycanda bələdiyyə seçkiləri» mövzusunda genişmiqyaslı tədqiqatı, bundan başqa ölkədə ilk dəfə olaraq "exit-poll" həyata keçirib.Bələdiyyə seçkiləri tədqiqat obyekti kimi götürülərkən hər bir vətəndaşın özünüidarə sisteminə cəlb edilməsinin ölkədə vətəndaş cəmiyyətinin inkişafı baxımından zəruri olduğu nəzərə alınmışdır. Bu tədqiqat zamanı AVCİYA əhalinin bələdiyyələrdən nə gözlədiyini, yerli özünüidarəetmə qurumlarının fəaliyyətinin effektivliyinin artırılması üçün hansı tədbirlərin həyata keçirilməsinin zəruri olduğunu və digər aspektləri dərindən öyrənmişdi. Bundan əlavə, AVCİYA bütün Azərbaycan ərazisində 300-dən çox yerli və xarici müşahidəçilərin iştirakı ilə seçkilərin monitorinqi prosesini təşkil etmişdir. Bakıda (Nəsimi rayonu) və Şamaxıda yerləşən seçki dairələrində isə «exit poll» (çıxışda sorğu) prinsipi əsasında sosioloji tədqiqat keçirilmişdir.

AVCİYA 13 may 2006-cı ildə keçirilmiş təkrar parlament seçkilərdə Bolqarıstanın «Azad və demokratik seçkilərin keçirilməsi uğrunda vətəndaş təşəbbüsü Assosiasiyası»(ADSVTA) Qeyri hökumət Təşkilatı və Şəffaf Seçkilər monitorinq mərkəzi» ilə birgə 10 dairənin 93 məntəqəsində "exit-poll" (çıxışda sorğu) və "quik-count"(səslərin tez sayılması) keçirmişdi, həmçinin səsvermə gedən 343 məntəqənin hər birində səslərin paralel hesablanması aparmışdır. Assosiasiya hər məntəqədə 2 müşahidəçi olmaqla, 686 müşahidəçi ilə seçkiləri izləmişdir. Eyni zamanda seçkilərə hazırlıq və namizədlərin təşviqat kampaniyasının kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılmasının 6 telekanal və 8 qəzet üzərində monitorinq aparmışdır.

AVCİYA 15 oktyabr Prezident seçkiləri ilə bağlı prosesə 2008-ci il yanvar ayından prezident seçkiləri ilə bağlı uzunmüddətli fəaliyyət planının tərtib edilməsi və Seçki Qərargahının yaradılması ilə start verib. Yanvar ayından etibarən AVCİYA Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatların ofislərində görüşlər keçirməyə başlayıb. Yanvar-oktyabr ayları ərzində AVCİYA nümayəndələri ABŞ-ın Seçki Sistemləri üzrə Beynəlxalq Fondu, ABŞ-ın Milli Demokratiya İnstitutu, ABŞ-ın Respublikaçılar İnstitutu, Counterpat İnternational, Avrasiya Əməkdaşlıq Fondu, Açıq Cəmiyyət İnstitutu – Yardım Fondu, ATƏT və Avropa Şurasının Bakı ofisləri, ATƏT-in uzunmüddətli müşəhidəçi missiyasının rəhbəri ilə görüşüb. ABŞ-ın Respublikaçılar İnstitutu AVCİYA-nın trenerləri üçün treninqlər təşkil edib. ABŞ-ın Seçki Sistemləri üzrə Beynəlxalq Fondu AVCİYA seçki qərargahına seçkilərlə bağlı ədəbiyyat vermişdir.

Azərbaycanın 12 regionunda, Bakının 11 rayonu, Abşeron və Sumqayıtda müşahidəçiləri üçün treninqlər keçirilib. Treniqlər zamanı müşahidəçilərə AVCİYA Seçki Qərəgahının hazırladığı “2008 – ci il Prezident seçkilərinin Monitorinqi. Yaddaş kitabçası”, “ Demokratik seçkilər və vətəndaş fəallığı” kitabları və seçki günü lazım olan materiallarla təmin olunmuş qovluqlar təqdim olunub.

13 oktyabr 2008 – ci il – ATƏT-in uzunmüddətli müşahidə missiyasının Park inq oteldə təşkil etdiyi toplantıda AVCİYA Seçki Qərəgahının rəhbəri məruzə ilə çıxış edərək Assosiasiyanın seçki öncəsi fəaliyyəti barədə beynəlxalq müşahidəçilərə məlumat verib.

AVCİYA prezident seçkilərində 5148 məntəqədə monitoroinq keçirib, 118 dairə üzrə 800 məntəqədə isə ekzit-poll və “quik-count” təşkil edib.

16 oktyabr 2008 – ci l tarixdə səhər saat 11- 00 - da AVCİYA Seçki Qərəgahı Hyat Reycens otelində mətbuat konfransı keçirərək prezident seçkisi ilə bağlı ilkin rəyini bəyan edib.

AVCİYA nümayəndələri Bolqarıstan, Gürcüstan, Belarus, Moldovada keçirilən seçkilərdə müxtəlif missiya tərkiblərində seçkiləri müşahidə etmişlər. AVCİYA, sıralarında 36 ölkənin nümayəndələrini birləşdirən Seçki Müşahidəçilərin Dünya Şəbəkəsinin (World Network od Election Observers – www. worldelection.net) üzvüdür.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) 18 mart 2009 – cu il tarixdə keçiriləcək referendumla bağlı təşəbbüs qruplarının yaradılması, onların MSK – ya müraciətləri, imza toplama kampaniyası və qeydə alınma proseduru, seçici siyahıları, referendum prosesi ilə bağlı qanun pozuntuları, referendumla bağlı qanunverici baza, referendum ərəfəsində ölkədəki siyasi mühüt, MSK, DSK və MnSK- ların fəaliyyəti, təşviğat kampaniyası və referendum gününün monitorinqinin təşkili kimi geniş miqyaslı fəaliyyətin icrasına başlayıb. Bununla əlaqədar olaraq aralıq hesabat hazırlayıb. Aralıq hesabat 10 yanvar - 10 mart 2009-cu il tarixini əhatə edir. Referendum günü müşahidə və referendumun nəticələri ilə bağlı ilkin hesabat mart ayının 19 – da, yekun hesabat isə aprel ayının 5 – nə kimi açıqlanacaq. Ilkin və yekun hesabatda AVCİYA – nın referendumun müşahidəsinin nəticələri ilə yanaşı, “ELS” müstəqil araşdırmalar mərkəzi ilə birgə 118 dairə 800 məntəqədə

keçirəcək Exit Poll və Quick Count tədqiqatlarının nəticələri də öz əksini tapacaq. Yekun rəyin azərbaycan və ingilis dillərində kitab şəkilində nəşri də planlaşdırılır.

KİV-in monitorinqi 3 milli telekanal, 15 qəzet və elektron KİV üzərində aparılıb.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) Referendum günü 118 DSK üzrə 3000 məntəqədə müşahidə aparacaq. Bundan başqa AVCİYA "ELS" Müstəqil Araşdırmalar Mərkəzi ilə birlikdə 118 DSK – nı əhatə edən 800 məntəqədə Exit Poll və Quick Count tədqiqatlarını həyata keçirəcək.

Ümumi İcmal

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 1-ci hissəsinin 18-ci bəndinə və 109-cu maddəsinin 18-ci bəndinə görə referendum təyin etmək hüququ Azərbaycan Respublikasının Milli Məclisinə və Azərbaycan Respublikasının Prezidentinə məxsusdur. Azərbaycan Respublikasında əksər dövlətlərdə olduğu kimi referendum yolu ilə qəbul edilmiş qərarlar adi qanunlardan yüksək hüquqi qüvvəyə malikdir. Azərbaycan Respublikası Konstitusiyasının 152 maddəsinə görə isə Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər yalnız referendumla qəbul edilə bilər. Konstitusiyanın 2- ci maddəsinin II bəndində deyilir: "Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir. "

Azərbaycanda həm sovet dövründə, həm də dövlət müstəqilliyi bərpa etdikdən sonra müxtəlif məsələrlə bağlı referendumlar keçirilib. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktı (18 oktyabr 1991 – ci il) qəbul olunandan sonra ölkə üzrə 4 Referendum keçirilib ki, bunlar da aşağıdakılardır:

- **29 dekabr 1991-ci il -** Azərbaycan Respublikası Ali Sovetinin 18 oktyabr 1991 – ci il qərarı ilə keçirilən referendumun bülletenlərində yalnız, "Siz "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktına tərəfdarsınızmı?" sualı var idi. Referendiumda 3.751.174 nəfər və ya səsverənlərin siyahılarına daxil edilmiş vətəndaşların 95,27 faizi iştirak etmiş, səsverənlərin 99,58 faizi sualın lehinə 0,2 faizi isə əleyhinə səs vermişdir.
- **29 avqust 1993 – cü il** – Azərbaycan Respublikasının Milli Məclisi 29 iyul 1993-cü il qərarı ilə Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında referendum keçirilib. Səsverənlərln siyahılarına salınmış 4.097.367 vətəndaşın 3.767.928 nəfəri və ya 92,02 faizi etimad göstərilməsinin əleyhinə, 77.730 nəfəri, yaxud 2,1 faizi isə leyhinə səs verib.
- **12 noyabr 1995-ci il -** Referendum Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə yeni Konstitusiyanın qəbulu üçün keçirilib. 3 milyon 556 min 277 nəfərin iştirak etdiyi ümumxalq səverməsində 91,9 faiz konstitusiyanın qəbul edilməsi lehinə, 6,63 faizi əleyhinə səs verib.Yeni konstitusiya 1995-ci il dekabrın 5-də qüvvəyə minmiş, həmin gündən 1978-ci il aprelin 21-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası (Əsas Qanunu) qüvvədən düşmüşdür.
- **24 avqust 2002-ci il -** Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin 21 iyun 2002 - ci il qərarı və Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikası Konstitusiyasına dəyişikliklər edilməsi məqsədilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında" 22 iyun 2002 – ci il tarixli Fərmana əsasən keçirilib. Referendumda seçicilərdən Konstitusiyanın 24 maddəsinə dəyişikliklə bağlı təkilifə öz münasibətlərini bildirmişlər. Referendumda ölkə üzrə 83,86 faiz seçici iştirak edib və əksəriyyət Azərbaycan Respublikası Konstitusiyasına dəyişikliklərin qəbul edilməsinə səs verib.

Azərbaycan Respublikasənda 18 mart 2009 – cu il tarixidə keçiriləcək referendumla bağlı qərar aşağıdakı hüquqi proseduraya əməl olunması ilə qəbul olunub. Əvvəl Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi ilə bağlı irəli sürülən referendum təşəbbüsü Azərbaycan Respublikası Milli Məclisində geniş müzakirə edilb. Bundən sonra Milli Məclisin 19 dekabr 2008-ci il tarixli qərarı ilə "Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi haqqında referendum aktı" layihəsi qəbul olundu və Milli Məclis həmin layihəni rəy verilməsi üçün Konstitusiya Məhkəməsinə göndərdi. Bundn sonra Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu bu layihəyəni müzakirə edərək 18 mart 2009 – cu il tarixdə referendum keçirilməsi haqqında rəy (24 dekabr 2008-ci il) verdi.

Qanunvericiliyə müvafiq olaraq təşviqat mərhələsi 18 fevral 2009-cu il tarixdə başlayıb. Təşviqat qruplarının kampaniyası qanunvericiliyə uyğun olaraq 28 gün müddətində müəyyənləşdirilib. Referendum kampaniyasının ümumən sakit və dinc mühitdə keçdiyi müşahidə olunur. Referendum qabağı təşviqat qruplarının üzvləri qanunvericiliklə onlar üçün müəyyən edilmiş yerlərdə ciddi maneə və əngəllərlə üzləşməmişlər. Təşviqat qrupları tərəfindən keçirilən tədbirlər zamanı sərbəst toplaşmaq hüquqlarının həyata keçirilməsini ilə bağlı problemlər qeydə alınmayıb. Qanunvericiliyə uyğun olaraq İTV-də təşəbbüs qruplarının üzvləri üçün pulsuz efir vaxtı ayrılıb. Təşviqat qrupları pulsuz efir vaxtından tam maneəsiz şəkildə istifadə edirlər. Referendum materiallarının yerləşdirilməsi ilə bağlı xüsüsi löhvələr yaradılıb.

Azərbaycan Respublikasının bütün ərazisində müşahidə aparılmasına dair ərizələr Mərkəzi Seçki Komissiyasına referendum gününə 10 gün qalanadək, seçki dairələrinin ərazisində müşahidənin aparılmasına dair ərizələr isə müvafiq dairə seçki komissiyalarına referendum gününə 5 gün qalanadək təqdim edilməlidir.

MSK Referendumla bağlı "Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Konstitusiyasının ümumxalq səsverməsinə çıxarılmış hissələrinin müqayisəli təqdimatı" adlı kitabçanı kütləvi tirajla nəşr edərək vətəndaşlar arasında yayılmasını təşkil edib. Bundan başqa Referendumla bağlı 12 adda plakat, 4 cilddə təlimat, qayda və izahlar bülletenlərini də kütləvi tirajla nəşr edib. Müşahidəçilərin qeydiyyata alınması ilə bağlı ciddi maneələr və əngəllər müşahidə olunmayıb.

Əsas müddəalar

18 mart 2009 – cu il tarixdə keçiriləcək Referendumda Konstitusiyanın 29 maddəsinə 41 dəyişiklik təklif olunur ki, bunlardan da 17-si maddələrə yeni hissələrin və ya bəndlərin əlavə edilməsi, 7 - si maddələrdə sözlərin əvəz edilməsi, 7 - si maddələrə yeni sözün və ya sözlərin əlavə olunması, 6 - sı maddələrə yeni cümlələrin əlavə olunması, 2 - si maddənin yeni redaksiyada verilməsi, 1 - i maddənin adının dəyişdirilməsi, 1 – i isə maddədən sözün çıxarılması ilə bağlıdır.

Referendumqabağı mühit

Dünya Bankının hesablamalarına görə dünya iqtisadi böhranının birinci mərhələsi başqa ölkələrlə müqayisədə Azərbaycan iqtisadiyyatına az təsir göstərib. Bu və digər səbəblərdən Azərbaycan Respublikasında Referndum ərəfəsi mühiti ictimai – iqtisadi və siyasi sabitlik, ictimai təhlükəsizlik şəraiti kimi xaraektirzə etmək olar. Referendum ərəfəsində və müşahidə dövrü ərzində ölkədə siyasi sabitlik və əmin-amanlığa təsir göstərə, poza biləcək hər hansı ciddi təsirlər, müdaxilələr və meyllər müşahidə edilməyib. Referendumun elan olunması və referendumun təşkili ilə bağlı prosedurlar qanunvericiliyə uyğun şəkildə həyata keçirilib. Referendumun elan olunması ilə bağlı müvafiq işlər Mərkəzi Seçki Komissiyası tərəfindən effektiv həyata keçirilib. Referenduma hazırlıqla bağlı fəaliyyət MSK tərəfindən qanunvericiliyə uyğun olaraq yerinə yetirilib. Ümumilikdə referenduma hazırlıqla bağlı əvvəlki illərlə müqayisədə müsbət irəliləyişlər müşahədə olunmaqdadır. Bu irəliləyişlər dairə və məntəqə seçki komissiyalarında iş şəraitinin yaxşılaşdırılması, onların maddi-texniki təminatı ilə bağlı problemlərin həlli, seçki komissiyası üzvlərinin bilik və bacarıqlarının artırılması istiqamətində görülmüş işlərlə şərtlənir. Respublika üzrə 117 dairə seçki komissiyasını əhatə edən 501 məntəqədə veb kamera quraşdırılması nəzərdə tutulur ki, həmin məntəqələr MSK tərəfindən artıq müəyyənləşdirilib.

Referendumqabağı mühitin demokratikliyi, söz və mətbuat azdlığının təmin olunması, siyasi qüvvələrin fəaliyyəti üçün münbit şəraitin bərqərar olması ilə seçilmişdir. Belə ki, siyasl qüvvlərin, KİV-in fəaliyyəti üçün qanunvericiliyə müvafiq olaraq bütün zəruri şərtlər yaradılmışdır. Siyası qüvvələrin, KİV-in normal fəlaiyyət göstərməsinə maneə ola biləcək, siyası qüvvələrin seçkiyə hazırlığına əngəl olacaq, pozacaq hər hansı hadisə, meyl və təsirlər qeydə alınmayıb.

MSK tərəfindən 9 təşviqat qrupu, DSK – lar tərəfindən isə 124 təşviqat qrupları qeydə alınıb. MSK – da qeydiyyatdan keçən təşviqat qrupları işərisində müxalifət partiyalırının təmsil olunduğu "Qarabağ və Respublika Uğrunda Hərəkat" və "Respublikaçılar" təşəbbüs qrupları da var.

Ölkədə normal referendum ab-havası müşahidə olunur, referenduma maraq kifayət qədər yüksəkdir. AVCİYA və digər təşkilatlar tərəfindən aparılan müşahidələr, keçirilən tədbirlər, KİV-in monitorinqi vətəndaşların, siyası qüvvələrin, mass-medianın, vətəndaş cəmiyyəti institutları referenduma böyük maraq və diqqət göstərdiyini üzə çıxarıb.

Ümumiyyətlə qeyd etmək olar ki, Azərbaycanda referendum keçirilməsi üçün əlverişli, münbit mühit mövcuddur. Siaysi qüvvələrin, KİV-in, vətəndaş cəmiyyəti institutlarının normal fəaliyyəti üçün hər hansı əngəllər, müdaxilələr, meyllər müşahidə edilməmiş, siyasi qüvvələr üçün bərabər imkanlar təmin edilmişdir.

Referendum admistrasiasının fəaliyyəti

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 30 dekabr 2008-ci il tarixli 31/140 saylı Qərarı ilə təsdiq edilmiş "AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏRİN EDİLMƏSİ ÜÇÜN 2009-CU İL MARTIN 18-NƏ TƏYİN EDİLMİŞ ÜMUMXALQ SƏSVERMƏSİNİN (REFERENDUMUN) HAZIRLANIB KEÇİRİLMƏSİ ÜZRƏ ƏSAS HƏRƏKƏT VƏ TƏDBİRLƏRİN" təqvim planına uyğun olaraq Referendum admistrasiası nəzərdə tutulmuş işləri vaxtında yerinə yetirir.

MSK referendumla bağlı aşağıdakı təlimatları qəbul edib:

1. Referendum üzrə təşviqat qruplarının yaradılması məqsədilə referendum üzrə təşəbbüs qruplarının formalaşdırılması haqqında
2. Referendum üzrə təşviqat qrupunun yaradılması məqsədilə seçici imzalarının toplanması üçün imza vərəqələrinin verilməs

3. Referendum üzrə təşviqat qrupunun qeydə alınması üçün seçici imzalarının toplanması və müvafiq sənədlərin seçki komissiyasına təqdim edilməsi qaydaları haqqında

4. Referendumun hazırlanmasına və keçirilməsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaitlərinin seçki (referendum) komissiyaları arasında bölüşdürülməsi, göstərilən vəsaitlərdən təyinatı üzrə istifadəyə nəzarət edilməsi qaydaları haqqında

5. Referendum üzrə təşviqat qruplarının xüsusi hesablarının açılması qaydaları haqqında

6. Referendum üzrə təşviqat qruplarının referendum üzrə maliyyə fondlarına vəsaitin daxil olması, xərclənməsi uçotunun aparılması və hesabatı qaydaları haqqında

7. Qeydə alınmış (alınmamış) referendum üzrə təşviqat qruplarının aldıqları pul vəsaitlərinin geri qaytarılması qaydaları haqqında

8. Kütləvi informasiya vasitələri ilə referendumqabağı təşviqatın aparılması qaydaları haqqında

9. Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin referendumda iştirakına dair

10. Referendum zamanı Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus olan sektorunda yerləşən neft platformalarında, xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində, azadlıqdan məhrumetmə yerlərində və istintaq təcridxanalarında səsvermənin təşkili haqqında

11. Referendum zamanı Azərbaycan Respublikasının hüdudlarından kənarda səsvermənin təşkili haqqında

12. Referendum zamanı hərbi hissələrdə səsvermənin təşkilinə dair

13. Referendumda seçicilərin vaxtından əvvəl səs verməsi qaydaları haqqında

14. Referendum zamanı səsvermə günü istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin

15. Məntəqə seçki (referendum) komissiyalarının fəaliyyətində "Referendumda səsvermə günü üçün yaddaş" kitabçasının tətbiqinə dair.

MSK – da imzaların yoxlanılması, şikayətlərə baxılması və KİV üzrə ekspert qrupları yaradılıb.

Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki (Referendum) Komissiyasının nəzdində yaradılmış ekspert qrupu şikyətləri araşdıraraq rəy vermiş və onlrın rəyi əsasında qərarlar qəbul olunmuşdur. Məsələn, MSK "Respublikaçılar" təşəbbüs qrupunun səlahiyyətli nümayəndəsi Gülağa Aslanlının 23 yanvar 2009 – cu il tarixli müraciəti ilə Cəlilabad rayonunun Təzəkənd kənd icra nümayəndəsi, kənd bələdiyyəsinin sədri və sahə müvəkkili, 24 yanvar 2009 – cu il tarixdə Cəlilabad və Neftçala rayonlarında yerli icra hakimiyyəti və polis orqanları, Gəncə şəhər Nizami rayon polis idarəsi, Sumqayıt, Zaqatala və İsmayıllı polis idarələr, 26 yanvar 2009-cu ildə Xaçmaz rayonunda icra, bələdiyyə və polis qurumlarından, Xaçmaz rayonunun Qarabağlar kəndinin bələdiyyə sədri və polis sahə müvəkkilindən, Xudat qəsəbəsinin polis sahə müvəkkili, bələdiyyə sədri, Xaçmaz rayon Nəcəran kənd ərazi icra vahidinin sədr müavinindən şikayətinə baxaraq qərar qəbul edib. Bundan başqa Gülağa Aslanlının 28 yanvar 2009-cu il tarixdə MSK – ya yazılı müraciət edərək, korlanmış imza vərəqələrinin əvəzinə yeni imza vərəqələrinin verilməsini xahişnə də münasibət bildirilib.

MSK həmçinin "Qarabağ və Respublika uğrunda" referendum üzrə təşəbbüs qrupunun səlahiyyətli nümayəndəsi Həsən Kərimovun 24 yanvar 2009-cu il Neftçala, Zərdab, Salyan rayon icra hakimiyyətlərindən, həmçinin rayon polis idarəsinin əməkdaşından, Salyan rayonu Qarabağlar kənd icra nümayəndəsindən, Hacıqabul, Sabirabad rayon və Mingəçevir şəhər polis şöbələrindən, 2 fevral 2009-cu il tarixdə Binəqədi Rayon Polis İdarəsinin 7-ci polis bölməsinin əməkdaşlarından şikayətinə baxaraq qərar qəbul edib.

"Seçki Məcəlləsi"nin 25.2.7, 26.1.7 maddələrinə uyğun olaraq MSK teleradio verilişləri və digər yayım qurumları vasitəsilə seçki qanunvericiliyinin izahının, seçicilərin hüquqi biliklərinin artırılmasının təmin olunması (çıxışlar, müsahibələr, "dəyirmi masa"lar), əyani vəsaitlərin (videokliplər, plakatlar, bukletlər və s.) hazırlanması və nümayiş etdirilməsini təşkil etmişdir.

MSK Xarici İşlər Nazirliyinin təqdimatı əsasında 21 fevral 2009 – cu il tarixə qədər "Seçki Məcəlləsi"nin 29.2, 46.1 maddələrinə əsasən Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan, yaxud uzunmüddətli xarici ezamiyyətdə olan və Azərbaycan Respublikasının müvafiq diplomatik nümayəndəliklərində, ya da konsul idarələrində qeydə alınmış seçicilərin sayı haqqında məlumatlar əsasında, göstərilən seçicilərin siyahıya salınması üçün müvafiq seçki dairələrinin siyahısının təsdiq etmiş və dəqiqləşdirmişdir.

Referenduma hazırlıq prosesi çərçivəsində seçicilərin siyahıları tərtib edilmiş və dəqiqləşdirilmiş, aşağı referendum komissiyalarının iş şəraiti yaxşılaşıdırlımış, onların əksəriyyəti üçün yeni binalar tikilmiş, seçicilər, aşağı referendum komissiyalarının üzvləri və KİV nümayəndələri üçün genişmiqyaslı maarifləndirmə proqramı həyata keçirilmiş, referendumun hazırlanmasını həyata keçirmək üçün zəruri olan normativ-hüquqi aktlar bazası təkmilləşdirilmiş, normativ xarakterli aktlar qəbul edilmiş və ictimailəşdirilmiş, referendum komissiyalarının fəaliyyəti, tərkibi, seçici siyahıları barədə məlumatlar və referendum sənədləri MSK-nın rəsmi internet səhifəsində yerləşdirilmişdir.

MSK-nın iclasları KİV nümayəndələri üçün açıq keçirilib. Bu da bütövlükdə referendum adminstrasiyasının fəaliyyətində şəffaflıq və hesabatlılığn artırılmasına xidmət edən addım kimi göstərməlidir.

MSK-nın "Seçkilər" İnformasiya Mərkəzindən KİV nümayəndələri və digər vətəndaşlar referendum günü səsvermənin gedişi və nəticələr barədə onlayn rejimi vasitəsilə operativ məlumat alamaq imkanı əldə edəcəklər.

Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Sərəncamının 30-cu bəndinə əssən MSK tərəfindən referendum komissiyası üzvlərinin peşəkarlığının artırılması məqsədilə martın 8 – nə qədər treninqlər keçirilmişdir. Bakıda təşkil olunmuş treniqlərə hər bir Dairə Seçki Komissiyasının 2 üzvü dəvət olunmuş və onlar üçün 4 günlük treninq keçirilmişdir. Ümumiyyətlə MSK 250 trener və 9 MSK təmsilçisinin iştirakı ilə 30 mindən artıq komissiya üzvü üçün treninq keçirib. Bu da öz növbəsində bütövlükdə seçki adminstrasiasının daha səmərəli fəaliyyətinə yaxından kömək etmişdir. Treniqlərə hazırlıq dövründə İFES təşkilatı trenerlər üçün treniqlər keçirilməsində MSK ilə əməkdaşlıq edib.

Referendum komissiyalarına, referendum komissiyası üzvlərinə öz hüquq və vəzifələrini yerinə yetirməsi ilə bağlı hər hansı müdaxilə, təsir və yaxud təzyiq faktları qeydə alınmamışdır.

Təşəbbüs qruplarının səlahiyyətli nümayəndələrinin MSK-nın iclaslarında iştirakı ilə bağlı heç bir problem müşahidə edilməmişdir. Qanunvericiliyin tələblərinə uyğun olaraq onların MSK-nın iclaslarında iştirak etmələri üçün bütün şərait yaradılmışdır.

Referendumun Respubliknın bütün ərazisində monitotiniqini keçirmək üçün MSK – da 2149 yerli, 132 beynəlxalq müşhidəçi qeydiyyatdan keçib. Onlar 14 beynəlxalq təşkilatı – Avropa Şurası Parlament Assambleyasını, Müstəqil Dövlətlər Birliyini, MDB Parlament Assambleyasını, Seçki Sistemləri üzrə Beynəlxalq Fondu (İFES) və Azərbaycanda fəaliyyət göstərən səfirlikləri təmsil edir. Konkret olaraq AŞ PA və MDB Parlament Assambleyası hərəyə - 9, MDB İcraiyyə Komitəsi - 42, Avropa Şurası - 1, ABŞ-ın Azərbaycandakı səfirliyi - 19, Rusiya səfirliyi - 18, Böyük Britaniya səfirliyi - 14, Norveç səfirliyi - 6, İtaliya və Almaniya - 3, Bolqarıstan və Fransa - 2, Polşa - 1, Seçki Sistemləri üzrə Beynəlxalq Fond (İFES) - 3 müşahidəçi ilə təmsil ediləcək. Yerlərdə müşahidəcilər DSK – larda qeydiyyatdan keçirlər.

Bütün bunalrı nəzərə alaraq qeyd etmək olar ki, referenduma hazırlıq və referendumun keçirilməsi ilə referendum adminstrasiyasının fəaliyyəti qənaətbəxş sayıla bilər. Referendum komissiayasıları, referendum komisiyaarının üzvlərinin normal fəaliyyəti üçün bütün zəruri addımlar atılmış, əlverişli mühit yaradılmışdır. Monitorinqin nəticələri deməyə əsas verir ki, Referendum adminstrasiyası şəffaf və ədalətli referendumun keçirilməsi vəzifəsinin öhdəsindən gəlmək iqtidarındadır.

Seçici sıyahılarının vəziyyəti

" Seçki Məcəlləsi"nin 48.1 maddəsinə əsasən səsvermə gününə azı 35 gün qalmış (2009-cu il fevralın 11-dək) seçicilərin tanış olması və əlavə dəqiqləşdirmələr aparılması üçün seçici siyahıları MSK tərəfindən təqdim edilmişdir. Seçici siyahıları " Seçki Məcəlləsi"nin 46.1 maddəsinə uyğun olaraq MSK tərəfindən təsdiq edildikdən sonra MSK nəzdində "Seçkilər" İnformasiya Mərkəzinin internet səhifəsində (www.cec.gov.az;www.infocenter.gov.az) yerləşdirilib. Seçicilər bu səhifəyə daxil olaraq öz adlarının seçici sıyahısında olub-olmadığını öyrənmək imkanı əldə ediblər. Adları seçici sıyahısında olmayan vətəndaşlar müvafiq qaydada müraciət etməklə adlarının seçici sıyahısına çox qısa müddətdə daxil edilməsinə nail olmaq imkanı əldə ediblər. Bu yeni qayda və mexanizmlər son prezident seçkilərindən tətbiq olunmağa başlanılıb ki, bu da əvvəlki seçkilərlə müqayisədə mütərəqqi dəyişikliklər olaraq seçici sıyahılarının dəqiqiləşdirilməsi və yoxlanmasında şəffaflığa, demokratikliyə nail olmağa imkan yaratmışdır. Bu dəyişikliklər eyni zamanda seçici sıyahılarının dəqiqiləşdirilməsi və yoxlanmasında seçki adminstrasiyasının çevik, səmərəli fəaliyyət göstərməsi, əvvəllər müşahidə olunan problemlərin və bürokratik əngəllərin aradan qaldırılması istiqamətində mühüm naliyyət olmuşdur. Bundan əlavə "Seçkilər" İnformasiya Mərkəzində "Qaynar xətt" də yaradılıb ki, istənilən şəxs ora müraciət etməklə, istədiyi informasiyanı əldə edə bilər. Həmçinin vətəndaşlar "Qaynar xətt" vasitəsilə öz arzu və təkliflərii də bildirmək imkanına malikdirlər. "Qaynar xətt" ə daxil olarkə aşağıdakı məzmunda seçicilər üçün təlimat da var: "Diqqət! Diqqət!Hörmətli seçici *-la işarə olunmuş xanaları dəqiqliklə doldurmağınız xahiş olunur. Əks halda müraciətiniz qəbul olunmayacaq. Məlumatları Azərbaycan əlifbası ilə daxil edin!"

Bütün seçki məntəqələrindəki məlumat lövhələrində seçici siyahılarında açıq yerləşdirilib, seçicilərin ünvanları təkcə internetdə deyil, həm də məlumat stendlərində birbaşa göstərilib.

Referendum zamanı Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus olan sektorunda yerləşən neft platformalarında, xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində, hərbi hissələrdə, azadlıqdan məhrumetmə yerlərində və istintaq təcridxanalarında Respublikanın hüdudlarından kənarda referendumun təşkili qaydaları müəyyən olunub.

.

Təşviqat qruplarının qeydə alınması

Referendumun elan edilməsi haqqında qərar rəsmi dərc olunduqdan sonra Konstitusiyanın 63.1–63.3 maddələrinə əsasən Referendum üzrə təşəbbüs qrupunun yaradılması prosesinə başlanıldı. “Seçki Məcəlləsi”nin 66.1, 66.2 maddələrinə əsasən səsvermə gününə azı 45 gün qalmış saat 18.00-dək (2009-cu il fevralın 1-i saat 18:00-dək) referendum üzrə təşviqat qrupları qeydə alınmaq üçün zəruri olan seçki sənədlərinin müvafiq seçki komissiyasına təqdim etmişlər. Sayı 2000-dən az olmayan təşəbbüsçülər MSK – ya, sayı 500-dən çox və 2000-dən az olan təşəbbüsçülər isə DSK – lara yazılı bildiriş təqdim edərək Konstitusiyanın 65 –ci maddəsinə əsasən Referendum üzrə təşviqat qrupunun yaradılması üçün seçici imzalarının toplanması prosesinə başladılar. Referendum üzrə təşviqat qrupu yaradılmasının təşəbbüsçüləri Referendum üzrə maliyyə fondunun formalaşdırılması üçün xüsusi hesabı açaraq işə başladılar. Referendum üzrə təşviqat qrupu yaradılmasının təşəbbüsçülərinin səlahiyyətli nümayəndələri Konstitusiyanın 66.2.3, 94.3.1, 128 maddələrinin tələblərinə uyğun olaraq qeydiyyat üçün zəruri olan sənədlərlə birlikdə hesabatda göstərilmiş tarixə 2 gün qalmışdan əvvəlki dövr üçün birinci ilkin maliyyə hesabatlarını MSK -ya təqdim etmişlər.

Konstitusiyanın 66.1, 66.2 maddələrinin tələblərinə uyğun olaraq (Səsvermə gününə azı 45 gün qalmış saat 18.00-dək) 2009-cu il fevralın 1-i saat 18:00-dək səlahiyyətli nümayəndələr Referendum üzrə təşviqat qrupunun qeydə alınması üçün zəruri olan seçki sənədlərinin müvafiq referendum komissiyasına təqdim etmişlər.

Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyaları Konstitusiyanın 59, 67, 68 maddələrinə əssən sənədlər qəbul edildikdən sonra 10 gün müddətində imza vərəqələrində və təqdim edilən digər sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması və referendum üzrə təşviqat qrupunun qeydə alınıb-alınmaması haqqında qərar qəbul etmişdir.

Mərkəzi Seçki Komissiyasına 14 təşəbbüs qrupu müraciət edərək imza vərəqələri götürüb. Bunlardan “Demokratik Azərbaycan Dünyası” imza vərəqələrini qaytarmayıb. “Abad kənd”, “Azad söz”, “Azərbaycan Xalq Cümhuriyyəti - AXC”, “Milli İstiqlal” təşəbbüs qruplarının topladıqları yararlı imzaların sayı qeydiyyat üçün kifayət etmədiyinə görə qeydə alınmayıb.

Mərkəzi Seçki Komissiyasına müraciət etmiş təşəbbüs qrupları haqqında ətraflı

MƏLUMAT

sənədlərini Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim etmiş təşəbbüs qruplarının

S İ Y A H I S I

11.02.09

№	Təşəbbüs qrupunun adı	Sənədin verilməsi tarixi	İmza vərəqələrinin təşəbbüs qrupuna verilməsi tarixi	İmza vərəqələrinin qaytarılması tarixi	Qeydə alınma qərarı və tarixi
1	“Yeni Azərbaycan”	06.01.09	07.01.09	14.01.09	Qərar N 2/8 22.01.09
2	“Şəhər”	12.01.09	12.01.09	21.01.09	Qərar N 4/16 27.01.09
3	“Tərəqqi”	12.01.09	12.01.09	21.01.09	Qərar N 5/24 29.01.09
4	“Hüquq və Demokratiya”	15.01.09	15.01.09	27.01.09	Qərar N 7/28 03.02.09
5	“Vətəndaş Cəmiyyəti”	13.01.09	13.01.09	26.01.09	Qərar N 8/31 05.02.09
6	“Davamlı İnkişaf Naminə”	21.01.09	21.01.09	30.01.09	Qərar 10/40 09.02.09
7	“Zəka”	24.01.09	24.01.09	01.02.09	Qərar 10/41 09.02.09
8	“Qarabağ və Respublika Uğrunda Hərəkat”	15.01.09	17.01.09	01.02.09	Qərar 11/43 11.02.09
9	“Respublikaçılar”	16.01.09	17.01.09	01.02.09	Qərar 11/44

					11.02.09
10	“Demokratik Azərbaycan Dünyası”	15.01.09	15.01.09	İmza vərəqələrini qaytarmadı	–
11	“Abad kənd”	12.01.09	12.01.09	21.01.09	Qərar N 5/25 29.01.09 (Qeydə alınmadı)
12	“Azad söz”	13.01.09	13.01.09	28.01.09	Qərar N 8/32 05.02.09 (Qeydə alınmadı
13	“Azərbaycan Xalq Cümhuriyyəti - AXC”	21.01.09	21.01.09	01.02.09	Qərar 11/45 11.02.09 (Qeydə alınmadı)
14	“Milli İstiqlal”	21.01.09	23.01.09	01.02.09	Qərar 11/46 11.02.09 (Qeydə alınmadı)

Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsinə dair ümumxalq səsverməsinin (referendumun) keçirilməsi ilə əlaqədar referendum üzrə təşviqat qrupu yaradılması ilə bağlı 116 Dairə Seçki Komissiyasına 83484 təşəbbüsçü 595 səlahiyyətli nümayəndə vasitəsilə 125 bildiriş təqdim edib. 125 təşəbbüs qrupu imza vərəqələri alıb və hamısı da vaxtında geri qaytarıb. Bunlardan yalnız 44 saylı Sumqayıt-Abşeron Seçki Dairəsindən 505 nəfər təşəbbüsçünü təmsil edən “Vicdan İ” təçəbbüs qrupunun qeydə alınmasından imtina edilib.

Dairə Seçki Komissiyalarına müraciət etmiş təşəbbüs qrupları haqqında ətraflı

MƏLUMAT

5 fevral 2009-cu il

Seçki dairəsinin sıra sayı və adı	Təqdim edilən bildiriş-lərin sayı	Təşəb-büsçü-lərin sayı	Təşəbbüs qrupunun adı	Təşəbbüs-çülərin təyin etdikləri səlahiyyət-li nüma-yəndə-lərin sayı	Təşəbbüs-çülərə imza vərəqələri-nin verilməsi	Təşviqat qrupunun sənədlə-rinin DSK-ya təqdim edilməsi	Təşviqat qrupunun qeydə alınıb alınma-ması
	Referendumun elan edilməsi haqqında qərar rəsmi dərc olunduqdan sonra				Bildirişin alınması ilə bağlı yazılı məlumatın verilməsi günündən başlayaraq	2009-cu il fevral ayının 1-i, saat 18.00-dək	Sənədlər qəbul edildikdən sonra 10 gün müddətində
1	***2***	***3***	***4***	***5***	***6***	***7***	***8***
4 - Naxçıvan	1	723	Azərbaycan Naminə	5	12.01.2009	16.01.2009	19.01.2009
8 - Binəqədi I	1	701	Yüksəliş	3	22.01.2009	29.01.2009	02.02.2009
9 - Binəqədi II	1	600	İnam	5	21.01.2009	29.01.2009	02.02.2009
10 - Binəqədi III	1	550	İrəli	5	22.01.2009	27.01.2009	30.01.2009
11 - Qaradağ	1	1004	Qaradağ	5	19.01.2009	26.01.2009	28.01.2009
13 - Əzizbəyov I	1	600	Zirvə	4	14.01.2009	16.01.2009	19.01.2009
14 - Əzizbəyov II	1	600	Ulduz	4	14.01.2009	16.01.2009	19.01.2009
15 - Yasamal I	1	600	Alatava	3	15.01.2009	19.01.2009	26.01.2009
16 - Yasamal II	1	600	Elm	5	15.01.2009	22.01.2009	28.01.2009

17 - Yasamal III	1	600	Ziyalı	4	15.01.2009	21.01.2009	28.01.2009
18 - Nərimanov-Nizami	1	600	Zirvə	5	30.01.2009	31.01.2009	05.02.2009
19 - Nərimanov I	1	600	Səma	5	30.01.2009	31.01.2009	03.02.2009
20 - Nərimanov II	1	600	Üfüq	5	30.01.2009	31.01.2009	05.02.2009
21 - Nəsimi I	1	660	İnkişaf	5	16.01.2009	21.01.2009	24.01.2009
22 - Nəsimi II	1	590	Azərbaycan XXI əsr	5	19.01.2009	23.01.2009	26.01.2009
23 - Nəsimi-Səbail	1	605	İnam	5	15.01.2009	21.01.2009	23.01.2009
24 - Nizami I	1	1020	Keşlə	5	14.01.2009	21.01.2009	27.01.2009
25 - Nizami II	1	680	Nizami	5	14.01.2009	21.01.2009	28.01.2009
26 - Sabunçu I	1	600	Bakıxanov	5	15.01.2009	22.01.2009	26.01.2009
27 - Sabunçu II	1	600	Sabunçu	5	15.01.2009	22.01.2009	26.01.2009
28 - Sabunçu III	1	602	Maştağa	5	16.01.2009	22.01.2009	26.01.2009
29 - Səbail	1	964	Səbail	4	17.01.2009	26.01.2009	30.01.2009
30 - Suraxanı I	1	600	Nord	3	23.01.2009	31.01.2009	03.02.2009
31 - Suraxanı II	1	600	Günəşli	3	19.01.2009	30.01.2009	04.02.2009
32 - Suraxanı III	1	600	Atəşgah	3	21.01.2009	30.01.2009	03.02.2009
33 - Xətai I	1	507	Əhmədli	5	17.01.2009	26.01.2009	30.01.2009
34 - Xətai II	1	503	Günəşli	5	15.01.2009	26.01.2009	27.01.2009
35 - Xətai III	1	505	Zeytun	5	14.01.2009	24.01.2009	26.01.2009
36 - Xətai IV	1	505	Qara şəhər	5	18.01.2009	23.01.2009	29.01.2009
37 - Nizami I (Gəncə)	1	509	Nizami	5	17.01.2009	23.01.2009	28.01.2009
38 - Nizami II (Gəncə)	1	507	Gülüstan	5	19.01.2009	28.01.2009	30.01.2009
39 - Kəpəz I (Gəncə)	1	540	Metallurq	4	17.01.2009	24.01.2009	28.01.2009
40 - Kəpəz II (Gəncə)	1	540	Kəpəz	5	16.01.2009	22.01.2009	28.01.2009
41 - Sumqayıt I	1	607	Dairə -I	5	13.01.2009	15.01.2009	21.01.2009
42 - Sumqayıt II	1	669	Dairə - II	5	13.01.2009	15.01.2009	21.01.2009
43 - Sumqayıt III	1	608	Dairə - III	5	13.01.2009	16.01.2009	22.01.2009
44 - Sumqayıt-Abşeron	1	610	Dairə - İV	5	13.01.2009	15.01.2009	17.01.2009
	1	503	Tərəqqi	5	17.01.2009	23.01.2009	27.01.2009
	1	505	Vicdan İ	5	31.01.2009	01.02.2009	**İ M T İ N A**
45 - Abşeron	1	832	Abşeron	5	19.01.2009	24.01.2009	27.01.2009
46 - Şirvan	1	800	Şirvan	5	17.01.2009	19.01.2009	23.01.2009
47 - Mingəçevir	1	1000	Mingəçevir	5	14.01.2009	19.01.2009	22.01.2009
48 - Yevlax	1	575	Aran	5	12.01.2009	17.01.2009	22.01.2009
49 - Yevlax-Mingəçevir	1	713	Ərəş	5	14.01.2009	19.01.2009	22.01.2009
50 - Qobustan-Xızı-Quba	1	605	Yeni kənd	5	14.01.2009	21.01.2009	23.01.2009
	1	508	Xızı	5	14.01.2009	21.01.2009	23.01.2009
51 - Qusar	1	939	Yenilik	5	19.01.2009	22.01.2009	26.01.2009
52 - Quba	1	684	İnkişaf	5	14.01.2009	21.01.2009	26.01.2009

53 - Quba-Qusar	1	850	Yüksəliş	5	14.01.2009	21.01.2009	26.01.2009
54 - Dəvəçi-Siyəzən	1	779	Şabran	5	15.01.2009	26.01.2009	28.01.2009
	1	510	Siyəzən	5	15.01.2009	26.01.2009	28.01.2009
55 - Xaçmaz şəhər	1	1370	Yeniləşən Azərbaycan	5	21.01.2009	27.01.2009	29.01.2009
57 - Kürdəmir	1	1050	Kürdəmir	5	16.01.2009	19.01.2009	24.01.2009
58 - Hacıqabul-Kürdəmir	1	800	Hacıqabul	5	19.01.2009	23.01.2009	27.01.2009
59 - Salyan	1	603	Salyan	5	16.01.2009	21.01.2009	23.01.2009
60 - Salyan-Neftçala	1	713	Qarabağlı	5	16.01.2009	21.01.2009	24.01.2009
61 - Neftçala	1	640	Neftçala	5	16.01.2009	21.01.2009	24.01.2009
62 - Saatlı	1	940	Saatlı	5	20.01.2009	21.01.2009	23.01.2009
63 - Sabirabad I	1	572	Sabirabad	5	17.01.2009	23.01.2009	27.01.2009
64 - Sabirabad II	1	1005	Suqovuşan	5	17.01.2009	23.01.2009	27.01.2009
65 - Saatlı-Sabirabad-Kürdəmir	1	694	Dönüş	5	20.01.2009	23.01.2009	26.01.2009
66 - Biləsuvar	1	800	Biləsuvar	5	16.01.2009	23.01.2009	27.01.2009
67 - Cəlilabad şəhər	1	504	Cəlilabad	5	14.01.2009	22.01.2009	27.01.2009
68 - Cəlilabad kənd	1	1199	Alar	5	14.01.2009	21.01.2009	27.01.2009
69 - Cəlilabad-Masallı-Biləsuvar	1	591	Göytəpə	5	14.01.2009	23.01.2009	29.01.2009
70 - Masallı şəhər	1	749	Masallı	5	16.01.2009	24.01.2009	28.01.2009
71 - Masallı kənd	1	722	Uğur	5	16.01.2009	24.01.2009	28.01.2009
72 - Yardımlı-Masallı	1	605	Zirvə	5	18.01.2009	24.01.2009	26.01.2009
73 - Lənkəran şəhər	1	550	Lənkəran	5	24.01.2009	28.01.2009	30.01.2009
74 - Lənkəran kənd	1	577	Uğurlu yol	5	24.01.2009	30.01.2009	31.01.2009
75 - Lənkəran-Masallı	1	517	Liman	5	27.01.2009	30.01.2009	04.02.2009
76 - Lənkəran-Astara	1	533	Subtropik	5	24.01.2009	27.01.2009	30.01.2009
77 - Astara	1	1035	Astara	5	19.01.2009	29.01.2009	31.01.2009
78 - Lerik-Lənkəran	1	718	Uzunömürlülər	5	20.01.2009	27.01.2009	28.01.2009
79 - İmişli	1	832	İmişli	5	14.01.2009	21.01.2009	26.01.2009
80 - İmişli-Beyləqan	1	522	Araz	5	14.01.2009	19.01.2009	26.01.2009
81 - Beyləqan	1	805	Mil	5	15.01.2009	19.01.2009	23.01.2009
82 - Ağcabədi	1	605	Ağcabədi	5	15.01.2009	21.01.2009	29.01.2009
83 - Ağcabədi-Ağdam	1	605	Tərəqqi	5	16.01.2009	22.01.2009	29.01.2009
84 - Füzuli	1	1100	Qayıdış	4	19.01.2009	21.01.2009	23.01.2009
85 - Şamaxı	1	901	Şamaxı	5	14.01.2009	19.01.2009	24.01.2009
86 - İsmayıllı	1	800	İsmayıllı	5	16.01.2009	19.01.2009	21.01.2009
87 - Ağsu-	1	705	Ağsu	5	15.01.2009	19.01.2009	24.01.2009

İsmayıllı							
88 - Göyçay	1	524	Göyçay kənd	5	16.01.2009	22.01.2009	26.01.2009
89 - Göyçay-Ağdaş	1	513	Göyçay şəhər	5	16.01.2009	21.01.2009	26.01.2009
90 - Ağdaş	1	1000	Ağdaş	5	15.01.2009	22.01.2009	24.01.2009
91 - Ucar	1	800	Ucar	5	15.01.2009	17.01.2009	22.01.2009
92 - Zərdab-Ucar	1	600	Zərdab	4	14.01.2009	17.01.2009	23.01.2009
93 - Bərdə şəhər	1	700	Yeni Bərdə	5	23.01.2009	27.01.2009	30.01.2009
94 - Bərdə kənd	1	560	Abad kənd	5	23.01.2009	27.01.2009	30.01.2009
95 - Tərtər	1	1000	Yeni Tərtər	5	19.01.2009	23.01.2009	28.01.2009
96 - Goranboy-Naftalan	1	625	Goranboy	5	15.01.2009	21.01.2009	26.01.2009
	1	505	Şəhər	5	16.01.2009	21.01.2009	26.01.2009
97 - Goramboy-Ağdam-Tərtər	1	507	Gülüstan	5	15.01.2009	19.01.2009	21.01.2009
98 - Şəmkir şəhər	1	505	Şəmkir	5	21.01.2009	22.01.2009	26.01.2009
99 - Şəmkir kənd	1	900	Zəyəm	5	21.01.2009	22.01.2009	26.01.2009
100 - Şəmkir-Daşkəsən	1	600	Kür	5	21.01.2009	22.01.2009	24.01.2009
101 - Göygöl-Daşkəsən	1	600	Göygöl	3	14.01.2009	16.01.2009	22.01.2009
	1	515	Mədənçi	2	13.01.2009	16.01.2009	22.01.2009
102 - Samux-Şəmkir	1	600	Samux	5	15.01.2009	17.01.2009	23.01.2009
103 - Gədəbəy	1	600	Gədəbəy	5	15.01.2009	19.01.2009	23.01.2009
104 - Gədəbəy-Tovuz	1	600	Qızıl torpaq	5	16.01.2009	19.01.2009	23.01.2009
105 - Tovuz	1	600	Üç qala	2	21.01.2009	26.01.2009	30.01.2009
106 - Tovuz-Qazax-Ağstafa	1	505	Oğuz	2	19.01.2009	26.01.2009	29.01.2009
107 - Qazax	1	513	Qazax	5	19.01.2009	27.01.2009	02.02.2009
108 - Ağstafa	1	655	Ağstafa	3	26.01.2009	29.01.2009	02.02.2009
109 - Balakən	1	900	Balakən	5	16.01.2009	19.01.2009	23.01.2009
110 - Zaqatala	1	745	Zaqatala	5	17.01.2009	19.01.2009	23.01.2009
111 - Zaqatala-Balakən	1	503	Qala Düzü	5	19.01.2009	21.01.2009	23.01.2009
112 - Qax	1	605	Qax	5	16.01.2009	21.01.2009	23.01.2009
113 - Şəki şəhər	1	571	Şəki xan sarayı	5	16.01.2009	21.01.2009	24.01.2009
114 - Şəki kənd I	1	581	Dədə Qorqud	5	17.01.2009	19.01.2009	22.01.2009
115 - Şəki kənd II	1	551	Çələbi xan	5	15.01.2009	21.01.2009	23.01.2009
116 - Qəbələ	1	902	Qəbələ	5	19.01.2009	21.01.2009	24.01.2009
117 - Oğuz-Qəbələ	1	502	Oğuz	5	17.01.2009	19.01.2009	23.01.2009
118 - Ağdam şəhər	1	600	Qarabağ -1	5	13.01.2009	17.01.2009	22.01.2009
119 - Ağdam kənd	1	600	Qarabağ -2	5	13.01.2009	17.01.2009	22.01.2009
120 - Cəbrayıl-	1	620	Cəbrayıl	5	16.01.2009	22.01.2009	26.01.2009

Qubadlı							
121 - Laçın	1	714	Laçın	5	18.01.2009	26.01.2009	29.01.2009
123 - Kəlbəcər	1	601	Kəlbəcər	5	15.01.2009	21.01.2009	28.01.2009
124 - Şuşa-Füzuli-Xocalı-Xocavənd	1	537	Şuşa	5	18.01.2009	27.01.2009	29.01.2009
	1	600	Xocavənd	5	18.01.2009	29.01.2009	31.01.2009
	1	521	Xocalı	5	23.01.2009	28.01.2009	29.01.2009
125 - Zəngilan-Qubadlı	1	516	Zəngilan	5	16.01.2009	19.01.2009	23.01.2009
	1	514	Qubadlı	5	16.01.2009	21.01.2009	26.01.2009
Cəmi: 116 dairə	125	83484		595	125 təşəbbüs qrupu imza vərəqələri alıb	125 təşəbbüs qrupu imza vərəqələrini qaytarıb	

Referendum kampaniyası

"Seçki Məcəlləsi"nin 75 – ci maddəsinə əsasən təşviqat kampaniyası (səsvermə gününə 28 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır. 2009-cu il fevralın 18-də başlanır, martın 17-si saat 8:00-da dayandırılır) 18 fevral 2009-cu il tarixdə başlamışdır. Təşviqat mərhələsi qanunvericiliyə uyğun olaraq 28 gün müddətində müəyyənləşdirilib. Referendum kampaniyasının ümumən sakit və dinc mühitdə keçdiyi müşahidə olunur.

Təşəbbüs qruplarının referendum kampanıyaları əsasən konfrans zallarında, iclas salonlarında görüşlər formasında həyata keçirilmişdir. Təşəbbüs qrupları arasında püşk atılması ilə İTV – də efir vaxtlarının istifadəsinin qrafiki və dəyirmi masada nümayəndələrin yerləri müəyyən olunub.

2009-cu il martın 18-nə təyin edilmiş ümumxalq səsverməsində (referendumda) İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən referendum üzrə təşviqat qrupları üçün ayrılmış ödənişsiz efir vaxtının bölgüsünün cədvəli MSK – nın saytında yerləşdirilib.

1. Ödənişsiz əsaslarla ayrılmıs efir vaxtının verilməsi 2009-cu il fevralın 18-də başlanırb.
2. Həftədə 1 dəfə televiziyada, 1 dəfə isə radioda hər bir referendum üzrə təşviqat qrupuna 10 dəqiqə efir vaxtı ayrılmaqla televiziyada 18.15-də, raioda isə 20.15-də başlamaq şərtilə "Dəyirmi masa" təşkil edilir.
3. "Dəyirmi masa" aparılarkən hər bir referendum üzrə təşviqat qrupu üçün ayrılmış efir vaxtından istifadə referendum aktı layihəsinin seçicilərə tam çatdırılmasını mümkün edən qaydada həyata keçirilir.

Bir qrup müxalifət partiyası və İctimai Birliklərin təmsil olunduğu Qarabağ və Respublika Uğrunda təşəbbüs qrupu mitinq üçün qanuna uyğun olaraq Bakı şəhər İH ayırdığı yeri qəbul etmədiklərinə görə martın 1-i, saat 15-də Qara Qarayev metrosunun yaxınlığındakı "Təbriz" kinoteatrında seçicilərlə görüş keçirib.

AVCIYA Seçki Qərargahı 2009-cu ilin martın 18-nə təyin edilmiş referendumla bağlı KİV-lərdə dərc olunmuş yazıların monitorinqini keçirir. Monitorinq yanvarın 18-də başlayaraq 15 qəzeti («Azərbaycan», «Yeni Azərbaycan», «Səs», «Yeni Müsavat», «Azadlıq», «Bizim yol», «Exo», «Zerkalo», «Ekspress», «525-ci qəzet», "Həftə içi", "Üç nöqtə", " Xalq Cəbhəsi", "Ədalət", "Şərq"), 4 telekanalın (İTV, Az.TV, ANS, «Lider») xəbərlər blokunu və 3 İnternet resursunu (APA, 1news.az və day.az) əhatə edir. Monitorinqləri keçirmək meyyarları dəyişməzdir. Dövlət qəzetləri Seçki Məcəlləsinin seçki zamanı KİV-in fəaliyyəti ilə bağlı maddələrə riayət etməli, təsisçiləri hüquqi və fiziki şəxslər olan çap orqanları həmin məcəlləyə, «KİV haqqında» Qanuna və jurnalistlərin peşə əxlaqı kodeksinə riayyət etməlidilər.

Xəbərlər MSK tərəfindən rəsmi qeydiyyata alınmış 9 təşviqat qrupu («Yeni Azərbaycan», «Vətəndaş cəmiyyəti», «Tərəqqi», «Zəka», «Davamlı inkişaf uğrunda», «Şəhər», «Qarabağ və Respublika uğrunda», «Hüquq və demokratiya», «Respublikaçılar») ətrafındadır. İndiyə qədər digər mühüm xəbər də var: MSK təşviqat qruplarına 207 AZN (hərəyə 23 min AZN) ayırıb; televiziya efirindən pulsuz istifadə etmə üzrə püşkatma keçirilib, təşviqat qruplarının əhali ilə görüşləri üçün MSK və Bakı şəhər İH xüsusi yerlər ayırıb.

«Azərbaycan» qəzeti MSK tərəfindən verilən rəsmi xəbərlərə üstünlük verir (52 sayda MSK yığıncaqlarının nəticələri və qəbul etdiyi qərarlar haqqında irili-xırdalı 123 məlumat). Qəzet referendumu

dəstəkləyən təşviqat qrupları tərəfindən verilən bəyanatlara da yer ayırmışdır - 16 yazı. «Yeni Azərbaycan» və «Səs» qəzetləri Yeni Azərbaycan partiyasının orqanı kimi alimlərin, partiyadaşların çıxışlarında referendumun gərəkliliyini vurğulamış, referendumun gözlənilən nəticələrini pisləyən müxalifət liderlərini və MSK-da qeydiyyata alınmış «Qarabağ və Respublika uğrunda» və «Respublikaçılar» təşəbbüs qrupları haqqında «qara PR» tipli yazılar vermişlər. «Yeni Azərbaycan» qəzeti 48 sayında bu mövzuya aid informasiyalar qarışıq 168 yazı, «Səs» qəzeti bir qədər az - 142 yazı verib.

«Yeni Müsavat», «Azadlıq», ən çox da «Bizim yol» qəzetləri əsasən izahlı informasiyaya üstünlük veriblər. «Bizim yol» qəzeti son zaman obyektiv məlumata, siyasi antaqonizm nümayiş etdirən hər iki tərəfin mövqeyini tam işıqlanlırmağa üstünlük verir. «Yeni Müsavat» qəzeti 59 sayında referenduma dair 179, «Azadlıq» qəzeti 63 sayında 165 yazı verməklə hər sayda orta hesabla bir A-3 formatlı səhifə ayırırlar. «Bizim yol» qəzeti 48 sayda 131 yazı verib.

Müstəqil qəzetlər ənənələrinə sadiq qalaraq müxbirlərinin fərdi baxışlarına «daxili senzura» tətbiq etmirlər. Hər iki siyasi tərəfin təmsilçiləri monitorinq obyekti olan qəzetlərdə çıxış etmək imkanı qazanıb. Müstəqil qəzetlərin hamısı monitorinqin əvvəlindən 48 say çıxarıb. «Ekspress» qəzeti - 178 yazı, «525ci qəzet» - 152 yazı, «Zerkalo» qəzeti - 122 yazı, «Exo» qəzeti - 67 , “Üç nöqtə” 34, “Xalq Cəbhəsi” 57, “Ədalət” 48, “Şərq” 62 yazı)

Televiziyalar bir qayda olaraq daha operativ işləyərək çəkiliş qruplarını MSK-ya, təşəbbüs qruplarının tədbirlərinə göndərir. AzTV-ni çıxmaq şərtilə (bu telekanal müxalifətçi təşəbbüs və təşviqat qruplarının tədbirlərini bir qayda olaraq işıqlandırmır) digər 3 telekanal hər gün orta hesabla 2 (0,7 dəqiqəlik olsa belə) süjet hazırlayaraq onları tamaşaçıların nəzərinə çatdırır. ANS telekanalı referendumla bağlı məlumatlara 218 dəqiqə, İTV telekanalı - 183 dəqiqə, «Lider» kanalı - 180 dəqiqə, «Az.TV» kanalı - 155 dəqiqə efir vaxtı ayırmışdır. Monitorinq xəbərləri əhatə etdiyinə görə spesifik verilişlər qeydə alınmamışdır.

Ölkədə olan İnternet resursları referendumu dolğun işıqlandırmış, informasiyadan və şərhlərdən başqa yerli və xarici ekspertlərin müsahibələrini arxivlərində saxlayıblar. Day.az saytı referendumla bağlı müxtəlif mövzularda 436, APA - 422, 1news.az isə 289 yazı verib.

Nəticələr: KİV- lərdə Referendumla bağı müxtəlif mövqelər plüralizm prinsiplərinə uyğun, tam sərbəst şəkildə, maneəsiz əks olunub. Təşviqat qrupları öz mövqelərinə uyğun olaraq təşviqat kampaniyası dövründə Referendumun leyhinə və əleyhinə KİV –lərdə sərbəst fikirlərini bildiriblər.

Nəticələr və tövsiyyələr

AVCİYA 18 mart 2009 – cu ildə keçiriləcək Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi haqqında Referendumun müşahidəsinin ilkin mərhələsi ilə bağlı aşağıdakı nəticələri qeyd edir:

- Azərbaycan Respublikasında 18 mart 2009 – cu il tarixidə keçiriləcək refendumla bağlı qərar qanuna müvafiq olaraq aşağıdakı hüquqi proseduraya əməl olunmaqla düzgün qəbul olunub. Əvvəlcə, Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi ilə bağlı irəli sürülən referendum təşəbbüsü Azərbaycan Respublikası Milli Məclisində geniş müzakirə edilb. Bundən sonra Milli Məclisin 19 dekabr 2008-ci il tarixli qərarı ilə “Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi haqqında referendum aktı” layihəsi qəbul olunmuş və Milli Məclis həmin layihəni rəy verilməsi üçün Konstitusiya Məhkəməsinə göndərib. Bundan sonra Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu bu layihəyəni müzakirə edərək 18 mart 2009 – cu il tarixdə referendum keçirilməsi haqqında rəy (24 dekabr 2008-ci il) verib.

• Referendumqabağı mühit demokratikliyi, söz və mətbuat azdlığının təmin olunması, siyasi qüvvələrin fəaliyyəti üçün münbit şəraitin bərqərar olması ilə seçilir. Belə ki, siyasl qüvvlərin, KİV-in fəaliyyəti üçün qanunvericiliyə müvafiq olaraq bütün zəruri şərait yaradılıb. Siyası qüvvələrin, KİV-in normal fəlaiyyət göstərməsinə maneə ola biləcək, siyası qüvvələrin referenduma hazırlığına əngəl olacaq, pozacaq hər hansı hadisə, meyl və təsirlər qeydə alınmayıb.

• Referenduma hazırlıq və referendumun keçirilməsi ilə referendum adminstrasiyasının fəaliyyəti qənaətbəxş sayıla bilər. Referendum komissiyaları, referendum komissiyalarının üzvlərinin normal fəaliyyəti üçün bütün zəruri addımlar atılmış, onların peşəkarlığının artırılması istiqamətində müvafiq işlər həyata keçirilib, komissiyaların fəliyyəti üçün əlverişli mühit yaradılıb. Referendum adminstrasiyası şəffaf, demokratik, azad, ədalətli referendum keçirilməsi vəzifəsinin öhdəsindən gəlmək iqtidarındadır.

• Təşəbbüs qruplarının imzatoplama kampanıyası zamanı onların normal fəaliyyətinə ciddi şəkildə mane ola biləcək, onların bu istiqamətdə fəaliyyətinin ciddi şəkildə məhdudlaşdırılmasına səbəb ola biləcək hər hansı təsir, müdaxilə və təzyiq faktları qeydə alınmayıb. Təşəbbüs qruplarının hamısına imza toplamaları üçün lazımi şərait yaradılıb.

• Referendumqabağı təşviqat kampaniyası ilə məşğul olan təşviqat qrupları kampaniya müddətində ciddi maneə və əngəllrlə üzləşməyiblər. Təşviqat qruplarına öz fəaliyyətləri ilə bağlı qanunvericilikdə müəyyən edilmiş qaydada ayrılmış yerlərdə qanunsuz müdaxilələr, əngəllər, maneələr qeydə alınmayıb. Referendum kampaniyası dövründə sərbəst toplaşmaq hüquqlarının təmin edilməsi və həyata keçirilməsi ilə bağlı ciddi problemlərə rast gəlinməyib. Təşviqat qrupları tərəfindən keçiriləm kütləvi aksiyalar zamanı sərbəst toplaşmaq hüquqlarının həyata keçirilməsini ilə bağlı problemlər qeydə alınmayıb. Referendumqabağı təşviqat kampaniyası dövründə təşviqat qruplarına bərabər imkanlar yaradılıb və onlar öz işlərini qanuna müvafiq olaraq davam etdirir.

Tövsiyyələr

- Referendum ərəfəsində olduğu kimi, referndum gününə qədər xüsusilə regionlarda Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı maarifçilik işinin genişləndirilməsinə ciddi ehtiyac var;
- Gələcəkdə Referendum və seçkilər keçirən komissiyaların formalaşdırılması prinsipinin dəyişdirilərək onların siyasi partiyaların nəzarətindən çıxarılması və müstəqil şəxslərdən, peşəkarlıq əsasında birpilləlli test imtahnının nəticələri əsasında təşkil edilməsi məqsədəuyğundur;
- Təşəbbüs qruplarının pulsuz efir vaxtı ilə yanaşı, ödənişli efir vaxtından da səmərəli istifadəsi üçün efir vaxtının qiymətləri, təbliğat və təşviqat üçün əlverişli hesab olunan vaxtın seçilməsi kampanıyanın daha uğurlu aparmasına kömək edə bilər;
- Prosesin daha çevik təşkili üçün Referendum admistrasiyasının ən yuxarı pilləsi (MSK) səviyyəsində olduğu kimi bütün dairə və məntəqə referendum komissiyalarının da informmasiya-kommunikasıya texnologiyaları ilə tam təmin edilməsinə ehtiyac var;
- Təşviqat qruplarının "Sərbəst toplaşmaq azdlığı haqqında" Qanundan daha səmərəli istifadəsi üçün qanun tətbiqi praktikası üzərində ictimai nəzarət mexanizmlərinin gücləndirilməsi zəruridir;
- İctimai nəzarətin gücləndirilməsi üçün KİV, QHT – lərlə yanaşı sadə vətəndaşların fəallığının daha da artırılması, QHT – hökumət əməkdaşlığının daha da genişləndirilməsi məqsədəmüvafiqdir;
- Referendum və demokratik seçkilər sahəsində beynəlxalq tərcübənin vətəndaşlar arasında geniş yayılması, xüsusilə regionlarda maarifçilik işlərinin genişləndirilməsi zəruridir.